*Azərbaycan iyulun 3-4-də Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XVII Sammitinə ev sahibliyi edəcək. Sammitdə təşkilata üzv ölkələrin dövlət və hökumət başçıları, nazirlər, İƏT-in müşahidəçiləri, qeyri-üzv dövlətlərdən xüsusi qonaqlar, iqtisadi inkişaf və rifaha nail olmaq üçün beynəlxalq təşkilatların rəhbərləri iştirak edəcəklər. Builki mövzu davamlı inkişaf və iqlimə davamlı iqtisadi əməkdaşlıq barədə olacaq.*




# İƏT: Xankəndidə Zirvə görüşü

## Ölkəmiz ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri formalaşdırıb

Beynəlxalq iqtisadi toplantının Xankəndidə təşkili əlamətdar hadisədir, həm də Xankəndini diqqət mərkəzinə gətirir. Həmçinin iyulun 1-dən 4-dək Azərbaycanın bir sıra şəhərlərində keçiriləcək dinamik və inklüziv İƏT Həftəsi də daxil olacaq. İƏT Həftəsi regionda gənclərin iştirakını və iqtisadi əlaqəni təşviq etmək məqsədi daşıyan bir sıra tematik sessiyaları da əhatə edəcək. "Güclü və iqlim dəyişikliyinə davamlı gələcəyin qurulmasında qadınların və gənclərin rolunun gücləndirilməsi" mövzusuna həsr olunmuş İƏT Qadınlar və Gənclər Sessiyası Laçında baş tutacaq. İnvestorların iştirakı ilə İƏT-in 6-cı Biznes Sammiti bu gün Füzuli şəhərində keçiriləcək. Mövzu "İqtisadi Əməkdaşlıq Təşkilatı Regionunda Davamlı İnkişaf üçün Katalizator kimi İnvestisiya və Ticarətin Təşviqi" olacaq.

Müasir dünyada regional xarakter daşıyan beynəlxalq təşkilatların əhəmiyyəti artır. Eyni coğrafi məkanda yerləşən dövlətlərin sərhəd və milli yaxınlığı əməkdaşlıq üçün geniş perspektivlər açır. Sərhədyanı regionların inkişafı, beynəlxalq ticarətə inteqrasiya, nəqliyyat və tranzit sahələrdə əməkdaşlıq iqtisadi inkişafa, mehriban qonşuluğa və fövqəladə vəziyyətlərdə qarşılıqlı yardıma geniş imkanlar yaradır. İqtisadi Əməkdaşlıq Təşkilatına bu prizmadan yanaşdıqda qurumun təkcə Azərbaycan üçün deyil, bütün üzv dövlətlər üçün mühüm olduğu aydınlaşır.

Dövlət başçısı vurğulayıb ki, son illər və xüsusilə antiterror tədbirlərindən sonra dövlət suverenliyimizin tam bərpa edilməsi təbii olaraq bütün investorlara ciddi müsbət siqnal göndərmişdir və biz bunun bəhrəsini indi görürük. Milli iqtisadiyyatımızın şaxələndirilməsi, ardıcıl və davamlı inkişafın, makroiqtisadi sabitliyin təmin olunması istiqamətində görülən işlərin nəticəsidir ki, ölkəmizlə qarşılıqlı etimada və hörmətə əsaslanan əməkdaşlıq əlaqələri qurulub və inkişaf etdirilir.

**(davamı 3-cü səhifədə)**



# Xankəndidə Zirvə görüşü

## *Ölkəmiz ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri formalaşdırıb*

üçün böyük imkanların və perspektivlərin olduğunu qeyd etmişdi. Ölkəmizin beynəlxalq tədbirlərin keçirilməsi sahəsində zəngin təcrübəyə malik olduğunu, xüsusilə COP29-u uğurla keçirdiyini vurğulamış və İqtisadi Əməkdaşlıq Təşkilatının sammitinin də Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil ediləcəyinə əminliyini bildirmişdi.

Xatırladaq ki, İƏT hökumətlərarası təşkilat kimi 1985-ci ildə Türkiyə, İran və Pakistan arasında iqtisadi, texniki və mədəni əməkdaşlığı möhkəmləndirmək məqsədilə yaradılmışdır. 1964-1979-cu illərdə fəaliyyət göstərmiş Regional Əməkdaşlıq və İnkişaf Təşkilatının davamçısı hesab olunur. 1992-ci il noyabrın 28-də 7 ölkə - Azərbaycan, Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkmənistan quruma qoşulmuş və təşkilatın hazırda 10 üzv ölkəsi var. Azərbaycan İƏT çərçivəsində əməkdaşlığa önəm verir və təşkilatın səmərəli fəaliyyətində maraqlıdır. Ulu öndər Heydər Əliyev 2002-ci ildə İstanbulda keçirilmiş İƏT üzv ölkələrinin dövlət və hökumət başçılarının VII Zirvə Görüşündə təşkilatın daha səmərəli fəaliyyətinin təmin edilməsi məqsədilə Tədqiqat Mərkəzinin Bakıda yaradılması təklifi ilə çıxış etmişdir. 2006-cı ildə İƏT-in Bakıda keçirilmiş 9-cu Zirvə Görüşündə Mərkəzin Bakı şəhərində təsis edilməsi təklifi Prezident İlham Əliyev tərəfindən təkrar irəli sürülmüş, 2021-ci ilin mart ayında İƏT-in Türkiyənin sədrliyi ilə videokonfrans vasitəsilə keçirilmiş XIV Zirvə Görüşündə Mərkəzin nizamnaməsi imzalanmışdır. İƏT-in Tədqiqat Mərkəzinin əsas məqsədi iqtisadi tədqiqatlara əsaslanan regional əməkdaşlığın qurulması üçün İƏT-ə və üzv ölkələrə yardım etməkdir. Ölkəmiz 2006 və 2012-ci illərdə İƏT Zirvə Toplantılarına ev sahibliyi etmiş və bu tədbirlərdə qəbul olunmuş sənədlərdə üzv ölkələr arasında bir sıra sosial-iqtisadi və siyasi əlaqələrin əsas prinsipləri, regional münasibətlərin prioritetləri və istiqamətləri öz əksini tapmışdır. Bakıda İqtisadi Əməkdaşlıq Təşkilatının XII Zirvə toplantısının yekununda Bakı Bəyannaməsi qəbul edilmişdir.

Azərbaycan İƏT vasitəsilə ortaq maraq kəsb edən layihələrin həyata keçirilməsini dəstəkləyir və müxtəlif sahələrdə əməkdaşlığın inkişafı məqsədilə təklif və təşəbbüslər irəli sürür. Bu xüsusda, ölkəmizin təşəbbüsü ilə Bakıda İƏT Tədqiqat Mərkəzinin təsis edilməsinə dair İƏT Xarici İşlər Nazirləri Şurası tərəfindən müvafiq qərar qəbul edilmişdir. Bundan əlavə, Azərbaycan təşkilat çərçivəsində digər üzv dövlətlərlə bir sıra prioritet sahələr, o cümlədən ticarət, investisiya, nəqliyyat, enerji və ətraf mühit sahələri üzrə əməkdaşlıq edir. Hazırda İƏT-ə üzv olan ölkələrdə ümumilikdə 550 milyon əhali yaşayır. Bu o deməkdir ki, təşkilat həm region, həm də istehlakçı potensialı baxımından kifayət qədər ciddi potensiala malikdir. Bu potensialına görə təşkilatın böyük perspektivi olduğu hesab edilir. İƏT üzvləri arasındakı illik ticarət dövriyyəsi 76 milyard dollara çatır.

İqtisadi Əməkdaşlıq Təşkilatı ölkəmiz üçün çoxşaxəli və strateji əhəmiyyətə malik qlobal platformadır. Azərbaycan İƏT vasitəsilə Mərkəzi Asiya, Yaxın Şərq ölkələri ilə iqtisadi əlaqələrini genişləndirir. Təşkilata üzv olan Türkiyə, İran, Pakistan, Özbəkistan ilə ticarət dövriyyəsi artır. Gömrük nəqliyyat prosedurlarının sadələşdirilməsi müzakirə olunur. İqtisadi Əməkdaşlıq Təşkilatı Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu layihəsinin beynəlxalq dəstəklə inkişaf etdirilməsi baxımından da mühüm platforma hesab olunur. Çünki burada Orta Dəhlizlə bağlı müzakirəyə çıxarılacaq məsələ İqtisadi Əməkdaşlıq Təşkilatının üzv dövlətləri üçün mühüm əhəmiyyət kəsb edir. Beynəlxalq nəqliyyat və yükdaşımalarda iştirak edən dövlətlər üçün xüsusilə maraqlıdır. Enerji və nəqliyyat sahəsində əməkdaşlıq elementləri İqtisadi Əməkdaşlıq Təşkilatında da özünü büruzə verir. Azərbaycanın enerji və ixrac potensialı, xüsusilə də neftə qaz gələcəkdə də "yaşıl enerji" ilə iqtisadi əməkdaşlq çərçivəsində daha geniş bazarlara çıxış imkanları yaradır.

Son 20 ildə reallığa çevrilən nəqliyyat layihələri sırasında Bakı-Tbilisi-Qars dəmir yolu xüsusi yer tutur. Dünyanın 100 möhtəşəm layihəsi siyahısına daxil edilən, Azərbaycanın təşəbbüsü ilə gerçəkləşən və qitələri birləşdirən önəmli layihə kimi dünya birliyinin diqqətini cəlb edən Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycanın tranzit ölkə kimi mövqeyini daha da möhkəmləndirdi. Təkcə Azərbaycan deyil, bölgə dövlətləri üçün siyasi, iqtisadi, strateji baxımdan böyük əhəmiyyət daşıyan, Çindən başlayaraq Londona qədər uzanan Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə ölkəmizin beynəlxalq nəqliyyat dəhlizlərinə və Türkiyəyə birbaşa çıxış imkanları yaranır. Asiya və Avropanı birləşdirən yeni marşrutların keçdiyi əsas ölkələr arasında Azərbaycanın ön sıralarda yer alması təsadüfi deyil. Dövlət başçısının qeyd etdiyi kimi, bu gün Avrasiyanın nəqliyyat xəritəsini Azərbaycansız, onun nəqliyyat infrastrukturu olmadan təsəvvür etmək mümkün deyil.

Bu dəmir yolu və digər layihələr İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələri üçün strateji nəqliyyat arteriyasına çevrilir. Bu marşrutların rəqəmsallaşdırılması və birgə istifadəsinin təşviqi ilə bağlı irəli sürülən təşəbbüslər təqdirəlayiqdir. İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlər bu prosesdə iştirak edirlər. Azərbaycan Şərq-Qərb, Şimal-Cənub və Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrində fəal iştirak edir, Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilir. Prezident İlham Əliyev deyib: "Biz öz tərəfdaşlarımızla birgə Azərbaycanın nəqliyyat infrastrukturunu Lapis-Lazuli nəqliyyat dəhlizi ilə birləşdirdik və nəqliyyat sahəsində çoxtərəfli əməkdaşlıq üçün geniş imkanlar yaratdıq".

Qeyd edək ki, İƏT ölkələri üçün xüsusi əhəmiyyət kəsb edən "Lapis-Lazuli" beynəlxalq nəqliyyat dəhlizinə dair Saziş 2017-ci il noyabrın 15-də Əfqanıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə arasında Əfqanıstana dair VII regional iqtisadi əməkdaşlıq konfransında (RECCA - Regional Economic Cooperation Conference on Afghanistan) imzalanıb. 2018-ci ildə ilk dəfə "Lapis-Lazuli" xətti ilə yükdaşımalarda ilk yüklər Azərbaycana gətirilib. Bu ölkələr arasında ticarət və investisiya, energetika, nəqliyyat və logistika, telekommunikasiya və informasiya texnologiyaları, gömrük və sərhəd məsələləri sahələrində əməkdaşlığın genişləndirilməsi üzrə "yol xəritəsi" imzalanıb. Dəhlizin başlanğıc nöqtəsi Əfqanıstan-Türkmənistan sərhədinin yaxınlığında yerləşən Aqina və Torqundi şəhərləridir. Bu şəhərlər qonşu Türkmənistanla dəmir yolu əlaqəsinə malik olub Əfqanıstanı Xəzər Dənizi hövzəsi ilə birləşdirən əsas şəbəkədir. Türkmənistan ərazisindən dəmir yolu vasitəsilə daşınan yüklər əvvəlcə Türkmənbaşı Dəniz limanına, oradan isə Bakıda Beynəlxalq Ələt Limanına daşınır.

Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müxtəlif dövlət və təşkilatlarla ikitərəfli və çoxtərəfli münasibətləri kontekstində şaxələndirilmiş siyasi-iqtisadi, hərbi əməkdaşlığın nəticələrini görürük. Bu illər ərzində aparılan çoxvektorlu, tarazlaşdırılmış və milli maraqlara əsaslanan xarici siyasət kursunun nəticəsi kimi, Azərbaycanın beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənib. Dövlət başçısının xarici siyasət fəlsəfəsi sayəsində ölkəmiz həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri formalaşdırıb.

İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində qəbul edilən hesabatlarda "dəhliz" anlayışı öz əksini tapıb. Bu, həm də Bakının uğurlu xarici siyasətinin bariz nümunəsidir ki, bunun nəticəsində İƏT regionunda "Zəngəzur dəhlizi" termininin qəbuluna nail olmaq və əsas regional oyunçuların diqqətini bu nəqliyyat arteriyasına cəlb etmək mümkün olub. Bu isə Azərbaycan Prezidentinin təklif etdiyi "3+3" əməkdaşlıq formatına digər İƏT ölkələrinin də qoşula biləcəyi ehtimalını xeyli gücləndirir.

Azərbaycanın 44 günlük Vətən müharibəsində torpaqlarını erməni işğalından azad etməsi regionda yeni siyasi və iqtisadi reallıqlar yaratdı. Bu reallıqlar yeni tranzit yolların çəkilməsinə, ticarətin genişlənməsinə, üzv dövlətlərdə yeni iş yerlərin açılmasına, regional təhlükəsizliyin güclənməsinə böyük imkanlar açıb. Bu istiqamətdə işlər davam edir və İƏT dövlətləri artıq tranzit marşrutlardan istifadə edirlər. Prezident İlham Əliyevin təşkilata üzv ölkələrin daha sıx əməkdaşlığı və iqtisadi inkişafa nail olması üçün yeni təşəbbüsü Avropa ilə ticarət əlaqələrinin, investisiya yatırımının artımına səbəb olacaq.

Xankəndidə İƏT-in 17-ci Zirvə görüşünə də Azərbaycanın uğurla ev sahibliyi edəcəyinə şübhə yoxdur. Zirvə görüşündə ölkəmizin regionda yaratdığı siyasi reallıqlar müzakirə olunacaq və İƏT üzvləri arasında əməkdaşlıq əlaqələrinin daha də inkişaf etməsi üçün əsaslı zəmin yaradılacaq.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika.- 2025.- 2 iyul (№ 132).- S.1;3.